**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
QEYRİ - HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ ŞURASI**

AZ1000, Bakı şəhəri,
Fikrət Əmirov küçəsi 1,
2-ci mərtəbə

Tel./Faks: (+994 12) 493 17 32
(+994 12) 493 17 80
www.cssn.gov.az


№ 01/81 «12» mart 2021 il

**Azərbaycan Respublikası
Auditorlar Palatasının sədri
cənab Vahid Novruzova**

**Hörmətli Auditorlar Palatasının sədri və kollektivi,**

Son illər ərzində ölkə həyatının bütün sahələrində geniş miqyaslı sosial-iqtisadi proqramlar həyata keçirilir, o cümlədən iqtisadiyyatın bütün sahələrində inkişafın sürətləndirilməsi ilə bağlı ardıcıl tədbirlər görülür. Dayanıqlı və dinamik iqtisadi inkişafı şərtləndirən əsas amillərdən biri də bu sahədə şəffaflığın və hesabatlılığın artırılması, habelə bununla bağlı təkmil tənzimləyici mexanizmləri nəzərdə tutan qanunvericilik sisteminin formalaşdırılması və tətbiqi məsələləridir.

1994-cü ildə Ümummilli lider Heydər Əliyev tərəfindən “Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanununun imzalanması ilə ölkədə auditor xidmətinin təşkilini, onun həyata keçirilməsinin hüquqi əsaslarını, auditorların funksiyalarını, hüquqlarını və vəzifələrini müəyyən edən, habelə mülkiyyətçinin əmlak hüquqlarını müdafiə edən müstəqil maliyyə nəzarəti-sisteminin qanunvericilik əsasları yaradılmışdır.

İqtisadi fəaliyyət sahələrində şəffaflıq və hesabatlılıq standartlarının inkişaf etdirilməsi ölkədə iqtisadi siyasətin dinamik həyata keçirilməsi üçün əsas şərtlərdən hesab olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iqtisadi fəaliyyət sahələrində iştirak edən təsərrüfat subyektlərinin mühasibat uçotunun dəqiq və dürüst aparılmasının və maliyyə hesabatlarının audit yoxlanılmasının təmin edilməsi ilə bağlı çoxsaylı qanunvericilik aktları imzalamışdır.

Ölkədə auditor xidmətinin dövlət tənzimlənməsinin təşkili məqsədilə yaradılmış Azərbaycan Respublikasının Auditorlar Palatası fəaliyyət göstərdiyi ötən 25 il ərzində dövlətin, təsərrüfat subyektlərinin, sərbəst auditorların və auditor təşkilatlarının mənafelərinin müdafiə edilməsi, öz fəaliyyətində “Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanunundan, habelə digər qanunvericilik aktlarından irəli gələn tələblərə auditorlar tərəfindən riayət edilməsinə nəzarətin həyata keçirilməsi, eləcə də Azərbaycan Respublikasında auditor xidmətinin inkişafı və təkmilləşdirilməsi istiqamətlərində kifayət qədər işlər görmüş, bu sahədə üzərinə düşən vəzifələri layiqincə icra etmişdir. Bunun nəticəsində ötən dövr ərzində audit

fəaliyyətinin təşkili və inkişafı sahəsində böyük uğurlar əldə olunmuş, dünyanın mütərəqqi audit standartları nəzərə alınmaqla ölkədə auditor xidməti davamlı olaraq təkmilləşdirilmiş, audit fəaliyyətinin inkişafı və bu sahədə problemlərin həlli ilə bağlı çoxsaylı konfranslar və müzakirələr keçirilmiş, bu sahədə fəaliyyət göstərən auditorların peşə biliklərinin, bacarıqlarının və vərdişlərinin inkişaf etdirilməsi ilə bağlı müxtəlif proqramlar icra olunmuşdur. Bütün bunlar gələcəkdə də audit xidmətinin dövlət tənzimlənməsinin müvəffəqiyyətlə həyata keçirilməsinə dair ciddi əsaslar və əminlik yaradır.

**Hörmətli Auditorlar Palatasının sədri və kollektivi!**

Auditorlar Palatasının fəaliyyətinin 25 illiyi münasibətilə Sizləri təbrik edir, ölkədə audit xidmətinin həyata keçirilməsi və gələcək inkişafı ilə bağlı fəaliyyətinizdə Sizlərə uğurlar arzu edirik.

**Hörmətlə,**

**Sədr**
**Millət vəkili** **Azay Quliyev**